## Ölkə birincisi "İki sahil"in müxbiri ilə həmsöhbət oldu

# Maksimum bal toplayacağıma inanırdım

**Bu günlərdə Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına keçirilən builki qəbul imtahanında maksimum nəticə göstərərək 100 bal toplayan Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Nihad Zeynallı ilə həmsöhbət olduq.**

Ölkə birincisi olan gəncimiz qeyd etdi ki, orta təhsilini 2018-ci ildə Bakı Oksford Məktəbinin Şəmkir filialında başa vurub: "2019-cu ildə bakalavr imtahanından 648.7 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunmuşam. Beynəlxalq İqtisad Məktəbi fakültəsində Mühasibat uçotu və audit ixtisası üzrə dörd ildir ki, təhsil alıram. Bu müddət ərzində universitetin mübadilə proqramından yararlanaraq 2020-ci ildə İsveçrədə Qərbi İsveçrə Universitetində təhsil almaq şansı qazanmışdım. Ancaq COVID-19 pandemiyasına görə xaricdə təhsil planlarım təəssüf ki, alınmadı."





Nihad Zeynallı bildirdi ki, hələ ki, universitet seçimini etməyib: "İxtisas seçimimə gəldikdə isə böyük ehtimal ki, təhsilimi öz sahəmdə, yəni maliyyə, iqtisadiyyat, audit sahəsində davam etməyi düşünürəm."

### İnformatika ilə bağlı 25 sualı heç bir tərəddüd olmadan cavablandırdığım anda...

Həmsöhbətimiz vurğuladı ki, imtahanda iştirak edən hər kəs sualları cavablandırarkən onda yaranan təəssürat artıq imkan verir ki, təqribən neçə bal yığacağını əvvəlcədən bilsin: "Mənim ən əsas ehtiyat etdiyim hissə informatika ilə bağlı suallar idi. Bu fənlə bağlı 25 sualı heç bir tərəddüd olmadan cavablandırdığım anda, elə imtahan zalında artıq nəticənin 100 bal ola biləcəyinə inanırdım. Sadəcə diqqətimi suallara və cavab kartına yönləndirib heç bir texniki səhv olmadan tamamlamağı düşünürdüm. İmtahan zalından çıxanda artıq belə qənaətə gəldim ki, hər şeyi yetərincə səlis və dəqiq edə bildim. Ona görə də maksimum bal toplayacağıma inanırdım."

### Həm işlədim, həm təhsil aldım, həm də axşamlar kursa getdim

Ölkə birincisi uğur qazanmaq üçün zəruri olan qızıl qaydalardan söz açdı: "Uğura gedən yolda çox əziyyət çəkmişəm. Bu yolda çox əzm, iradə ortaya qoydum. Bunu mənim müəllimlərim, valideynlərim və ətrafımdakılar da görürdülər. Həm işləyirdim, həm universitetdə dərslərimə və imtahanlara müntəzəm qatılmağa çalışırdım, həm də qalan zamanda axşamlar kursa gedib müntəzəm olaraq imtahan üçün çalışmalara davam edirdim. Əsas olan heç bir dəfə də olsun "of" demədən, necə deyərlər, gözümü 100 bal hədəfindən ayırmadan sona kimi çalışmağımdır. Sona kimi dedikdə sözün əsl mənasında "sona kimi" nəzərdə tuturam. İmtahan keçirilən məntəqəyə gedənə kimi yolda belə, mən ən son dərs materiallarının üzərindən keçirdim, əmin olmadığım hissələri möhkəmləndirməyə çalışırdım. İkinci faktor isə vaxt bölgüsüdür. İmtahanda da, imtahana hazırlaşan müddətdə də düzgün, planlaşdırılmış şəkildə çalışmağa üstünlük verirdim. Son ay ərzində mənasız vaxt itkilərini minimuma endirməyə çalışırdım və bu, öz nəticəsini göstərdi."

### Şəhriyar Məmmədyarova heç-heçə təklif etdim

Söhbət zamanı Nihad həm də şahmatı çox sevdiyini vurğuladı: "Hətta 2018-ci ildə Şəmkirdə "Vüqar Həşimov Memorial" yarışında məşhur şahmatçı Şəhriyar Məmmədyarovla da şahmat oynamışam. Şəhriyar Məmmədyarov orada fasilə müddətində seans



keçirirdi. Həvəsli iştirakçılardan biri də mən idim və onunla şahmat oynadım. O, bir gediş edib başqa masalara keçirdi. Lakin mənimlə oyunda bir neçə gediş etdi və gördüm ki, oyunda vəziyyət gərgindir. Ona təklif etdim ki, başqa masaya keçsin. Sonra yenə mənimlə oyuna gəldi və bu zaman ona heç-heçə ilə bağlı bir razılaşma təklif etdim. Çox sağ olsun, məni qırmadı. De-fakto bərabərlik oldu".

Sonda müsahibimiz fikirlərini belə bitirdi: "Sizlərə öz təşəkkürümü bildirirəm. Zəhmət heç vaxt itməz! Biz gözlədiyimiz anda və yaxud başqa bir vaxt! Hər kəsə uğurlar arzulayıram."

***"İki sahil" olaraq biz də sizi təbrik edirik! Uğurlarınızın davamlı olmasını diləyirik!***

**İki sahil.- 2023.- 23 fevral.- S. 6.**